## RƏQƏMSAL KİTABXANALARIN FORMALAŞDIRILMASI VƏ İDARƏ OLUNMASI

**_Lalə Hamlet qızı Məmmədova_**

*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Yasamal rayonu, Murtuza Muxtarov küç.*
*lala.mamedova72@mail.ru*

**_Günay Etibar qızı Kərimova_**

*Azərbaycan Dövlət İqtisad Universiteti, müəllim*
*Yasamal rayonu, Murtuza Muxtarov küç.*
*gunaykarimova1990@gmail.com*

**_Xanım Pərviz qızı Əzizova_**

*Azərbaycan Dövlət İqtisad Universiteti, müəllim*
*Yasamal rayonu, Murtuza Muxtarov küç.*
*khanim.azizova77@outlook.com*

**_Açar sözlər:_** *rəqəmsal kitabxana, informasiya, texologiya, idarəetmə, resurs*
**_Ключевые слова:_** *электронная библиотека, информация, технологии, управление, ресурс*
**_Keywords:_** *digital library, information, technology, management, resource*

**Xülasə:** Müasir zaman üçün texnologiyaların sürətli inkişafı informasiya cəmiyyətinin yaranmasına səbəb olmuş və bu proses bütün sahələrə eyni zaman da kitabxanaların da fəaliyyətinə əhəmiyyətli dərəcədə müsbət yöndə təsir göstərmişdir. Ənənəvi kitabxanalar günümüzün informasiya ehtiyaclarını tam qarşılaya bilməməsi nəticəsində rəqəmsal kitabxanaların meydana gəlməsi üçün zəmin yaratmışdır. Ənənəvi kitabxanaların günümüzün tələbatına uyğun olaraq rəqəmsal müstəviyə keçidi, istifadəçilərin informasiyaya daha rahat və sürətli şəkildə çıxışını təmin etmiş, eyni zamanda kitabxana idarəçiliyinin yeni metod və strategiyalarla yenidən formalaşmasını zəruri etmişdir. Rəqəmsal kitabxanalar informasiya resurslarının elektron formada saxlanılması, idarə olunması və istifadəçilərə təqdim edilməsini təmin edən sistemlərdir. Bu məqalədə rəqəmsal kitabxanaların formalaşdırılması, eyni zamanda idarə olunması və bu istiqamətdə qarşıya çıxan problemlər araşdırılır.

**Резюме:** Стремительное развитие современных технологий привело к становлению информационного общества, и этот процесс оказал существенное положительное влияние на все сферы, в том числе и на деятельность библиотек. Неспособность традиционных библиотек в полной мере удовлетворить сегодняшние информационные потребности проложила путь к появлению электронных библиотек. Переход традиционных библиотек на цифровой уровень в соответствии с современными потребностями предоставил пользователям более удобный и быстрый доступ к информации, но в то же время потребовал перестройки управления библиотекой с использованием новых методов и стратегий. Электронные библиотеки — это системы, обеспечивающие хранение, управление и представление информационных ресурсов пользователям в электронном виде. В данной статье рассматриваются вопросы формирования и управления электронными библиотеками, а также проблемы, возникающие в этом направлении.

**Summary:** The rapid development of technologies for the modern era has led to the emergence of an information society, and this process has had a significant positive impact on all areas, including the activities of libraries. As a result of the inability of traditional libraries to fully meet today's information needs, it has created the basis for the emergence of digital libraries. The transition of traditional libraries to the digital level in accordance with today's needs has provided users with more convenient and faster access to information, and at the same time has necessitated the re-formation of library management with new methods and strategies. Digital libraries are systems that ensure the storage, management and presentation of information resources in electronic form to users. This article examines the formation and management of digital libraries and the problems encountered in this direction.

İnformasiya texnologiyalarının sürətli inkişafı, ənənəvi kitabxanaların yeni dövrün tələblərinə uyğun olaraq rəqəmsal müstəviyə keçməsini zəruri etmişdir. Bu keçid, istifadəçilərin informasiya resurslarına daha rahat və sürətli şəkildə çıxışını təmin etməklə yanaşı, kitabxana işçilərinə də daha səmərəli idarəetmə imkanı yaradır. Rəqəmsal kitabxanalar həmçinin mədəni irsin qorunmasına, informasiya resurslarının genişləndirilməsinə və məlumatların təhlükəsiz şəkildə saxlanmasına kömək edir. Bu məqalədə rəqəmsal kitabxanaların formalaşdırılması və idarə olunması mövzusu ətrafında aparılacaq müzakirələrə diqqət yetiriləcəkdir.

Rəqəmsal kitabxana nədir sualına cavab tapmaq üçün ilk növbədə texnologiya haqqında ümumi anlayışa sahib olmaq lazımdır. Müasir zamanda texnologiya termini mürəkkəb və eyni zaman da çoxmənalı bir anlayış kimi özünü ifadə etməkdədir. Texnologiya yunan dilindən tərcümədə "techne"- peşakarlıq, ustalıq, bacarıq; "loqos"- elm, söz, anlayış, təlim deməkdir. Hərfi mənada tərcümə zamanı "Ustalıq, bacarıq haqqında bilik, təlim" mənasını ifadə edir. [1, s.6]

Rəqəmsal kitabxana, fiziki kitabxanalardan fərqli olaraq, bütün informasiya resurslarının rəqəmsal formatda saxlanması, idarə olunması və istifadəçilərə təqdim edilməsi ilə xarakterizə olunan bir sistemdir. Bu kitabxanalar müxtəlif informasiya materiallarını (mətnlər, şəkillər, video və audio fayllar, elmi jurnallar və s.) rəqəmsal formatda toplayır və istifadəçilərə onlara istənilən zaman və istənilən yerdən çıxış imkanı verir.

Rəqəmsal kitabxananın anlayışı və əhəmiyyəti nədən ibarətdir olduğunu anlamaq üçün ilk olaraq mövcud kitabxanaların fəaliyyətini bilmək lazımdır. Rəqəmsal kitabxana – mətn, şəkil, səs, video və digər rəqəmsal formatlarda olan materialların toplanması, qorunması və istifadəyə verilməsi üçün yaradılmış müasir informasiya sistemidir. Onlar geniş auditoriyaya 24/7 əsasda xidmət göstərməklə yanaşı, fiziki məhdudiyyətləri də aradan qaldırır. Bu kitabxanalar elmi araşdırmaların, təhsil prosesinin və mədəni irsin qorunub saxlanılmasının əsas alətlərindən birinə çevrilmişdir.

Rəqəmsal kitabxanaların formalaşdırılması prosesləri günümüzün ən aktual mövzusudur.

Belə ki, rəqəmsal kitabxananın yaradılması bir neçə mərhələdən ibarət olaraq fəaliyyət göstərir.

Məzmun seçimi və toplanması əsas mərhələ olaraq müəyyən edilmişdir. Rəqəmsallaşdırılacaq materialların seçilməsi, müəllif hüquqlarının müəyyənləşdirilməsi və informasiya ehtiyaclarına uyğun mənbələrin təhlili və bu kimi nüanslar əsas götürülür. Xidmət vasitələri kimi əməliyyat sistemlərinin funksiyalarının genisləndirilməsi, texniki vasitələrin etibarlı işinin təmin edilməsi zamanı (məsələn, drayverlərin, periferiya qurğularının) və kompyuter tərəfindən xüsusi tip məsələlərin verinə yetirilməsi (diaqnostika, yaddaşın idarə olunması, kompyuter virusları ilə mübariza, disklərin formatlaşdırılması, faylların arxivləşdirilməsi və s.) üçün istifadə olunurlar. [2, s.84].

Rəqəmsallaşdırma prosesi dedikdə ilk öncə skanerləmə, OCR (optik simvol tanıma), metadata əlavə etmə və fayl formatlarının müəyyən edilməsi.

Saxlanma və qorunma prosesi isə rəqəmsal resursların uzunmüddətli saxlanması üçün bulud texnologiyalarının, ehtiyat nüsxələmə və təhlükəsizlik sistemlərinin tətbiqi. "İnformasiya, informasi-

yalaşdırma və informasiyanm mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda informasiya texnologiyaları anlayışına bela bir hüquqi-elmi tərif verilir: "İnformasiya texnologiyaları - informasiya prosesləri zamanı, o cümlədən hesablama və rabitə texnikasının tətbiqi ilə istifadə ediln üsul və vasitələr sistemi". [3, s. 1215].

İdarəetmə mexanizmləri rəqəmsal kitabxanaların effektiv idarə olunması üçün bu kimi aspektlərə diqqət yetirilməlidir. İnformasiya təhlükəsizliyi məlumatların icazəsiz girişlərdən qorunması, istifadəçi autentifikasiyası və məlumatların şifrələnməsi. Metadata və təsnifat resursların düzgün təsnif edilməsi və axtarış sistemləri üçün uyğun indeksləşdirmə metodlarının tətbiqi. İstifadəçi təcrübəsi sadə və funksional interfeys, çoxdilli dəstək, mobil uyğunluq və əlçatanlıq imkanları əsas effektivlik göstəriciləri kimi hesab olunur. İstifadəyə təqdimetmə zamanı istifadəçi interfeyslərinin hazırlanması, axtarış funksiyalarının tətbiqi və müxtəlif platformalarla inteqrasiya. İnfrastruktur və texniki təminatı serverlər, proqram təminatı və texniki heyətin davamlı dəstəyi.

Qarşıda duran çağırışlar və perspektivlər əsasında rəqəmsal kitabxanaların inkişafı bəzi çətinliklərlə qarşılaşır. Müəllif hüquqları və lisenziyalaşdırma məsələlərieyni zaman da maliyyə və texniki resursların məhdudluğu, istifadəçi biliklərinin yetərsizliyi kimi mənfi nüanslar mövcuddur. Lakin bu çətinliklərə baxmayaraq, süni intellektin və böyük verilənlər texnologiyalarının tətbiqi rəqəmsal kitabxanaların daha da funksional və ağıllı hala gəlməsinə yol açmaqdadır.

**Nəticə:** Rəqəmsal kitabxanalar informasiya cəmiyyətinin mühüm bir elementi olaraq təhsil, elm və mədəniyyət sahələrinə yeni imkanlar təqdim edir. Onların düzgün formalaşdırılması və səmərəli idarə olunması bilik cəmiyyətinə keçidin vacib tərkib hissəsidir. Bu sahədə davamlı inkişaf və beynəlxalq əməkdaşlıq, rəqəmsal irsin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət kəsb edir.

### Ədəbiyyat


1. *İsmayılov X.İ.* Kitabxana – informasiya texnologiyaları.- Bakı: Nurlar, 2009.
2. *Xələfov A.A., Qurbanov A.İ.* Kitabxanaların kompyuterləşdirilməsinin əsasları. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006.
3. İnformasiya, informasiyalaşdırma və informasiyanm mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda //Azərbaycanın Qanunvericilik Toplusu.- Bakı, 1998.